**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi haqqında**
**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi (bundan sonra – Baş idarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Aparatının müstəqil struktur qurumudur.

1.2. Baş idarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələri, "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) əmri ilə təsdiq edilmiş "Bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında" təlimatları, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, o cümlədən bələdiyyə fəaliyyətini tənzimləyən digər qanunları, həmçinin Nazirliyin kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Baş idarə fəaliyyətini Nazirliyin Aparatının struktur qurumları, strukturuna daxil olan qurumları (bundan sonra - struktur qurumlar), dövlət və yerli özünüidarə orqanları, habelə digər qurumlarla əlaqəli həyata keçirir.

1.4. Baş idarə üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi və öz adı həkk olunmuş möhürə və müvafiq ştamplara malikdir.

## 2. Baş idarənin fəaliyyət istiqamətləri

2.1. Baş idarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin (bundan sonra – bələdiyyələr) fəaliyyətinin təşkilinə kömək edir və onlara yerli özünüidarə fəaliyyətinin qanunauyğun həyata keçirilməsi sahəsində metodoloji yardım göstərilməsi üzrə tədbirlər görür;

2.1.2. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirir;

2.1.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Baş idarənin vəzifələri

3.1. Baş idarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. bələdiyyələrin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təşkil edilməsinə kömək etmək və onlara metodoloji yardım göstərmək;

3.1.2. bələdiyyələr tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının, onları yaradan səbəb

və şəraitin aradan qaldırılması məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək;

3.1.3. bələdiyyələrin fəaliyyətində yol verilmiş qanunvericiliyin pozulması hallarının səbəb və şəraitinin öyrənilməsi və onların gələcəkdə qarşısının alınması məqsədi ilə müvafiq təhlil və ümumiləşdirmələr aparmaq;

3.1.4. bələdiyyələrin fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması, o cümlədən aktual məsələlər barədə qanunvericiliyin izahı məqsədi ilə tövsiyələr və metodik vəsaitlər hazırlamaq;

3.1.5. bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi işində regional ədliyyə idarələrinə metodiki rəhbərlik etmək və bu istiqamətdə işin aparılmasına nəzarət etmək, o cümlədən bu fəaliyyətdə müvafiq elektron informasiya resurslarının imkanlarından istifadə etmək, habelə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə bələdiyyələrlə iş üzrə metodiki köməklik etmək;

3.1.6. bələdiyyə üzvləri və qulluqçuları arasında hüququn ayrı-ayrı sahələrinə dair hüquqi maarifləndirmə tədbirləri keçirməklə onların hüquqi biliklərinin artırılmasına kömək etmək;

3.1.7. yerli özünüidarəetmə ilə bağlı qanunvericilik aktları barədə bələdiyyələri məlumatlandırmaq;

3.1.8. bələdiyyə üzvlərinin və qulluqçularının sorğularına və vətəndaşların müraciətlərinə cavab vermək;

3.1.9. inkişaf etmiş ölkələrin bələdiyyə fəaliyyətinə dair təcrübəsini öyrənmək, mütərəqqi təcrübəni tətbiq etmək məqsədi ilə qarşılıqlı əlaqələrin qurulmasında bələdiyyələrə kömək göstərmək;

3.1.10. Baş idarədə kargüzarlıq və arxiv işini təşkil etmək;

3.1.11. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı hər ilin yekunu üzrə öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzə hazırlamaq;

3.1.12. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

## 4. Baş idarənin hüquqları

4.1. Baş idarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. struktur qurumlara, dövlət və yerli özünüidarə orqanlarına, fiziki və hüquqi şəxslərə müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;

4.1.2. regional ədliyyə idarələrinin ərazi yurisdiksiyası üzrə bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım, inzibati nəzarətin həyata keçirilməsi işinin təşkilini öyrənmək və bu sahədə təkliflər vermək;

4.1.3. daxil olan müraciətlər araşdırılarkən işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halların hərtərəfli, tam və obyektiv öyrənilməsi üçün yerində araşdırma aparmaq və bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından və digər aidiyyəti şəxslərdən bununla bağlı yazılı şəkildə məlumatlar, arayışlar almaq;

4.1.4. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirərkən bələdiyyələrin fəaliyyətində qanunçuluq prinsipinə riayət olunmasının təmin edilməsi

ilə bağlı təhlil və ümumiləşdirmələr aparmaq, onları öz təklif və tövsiyələri ilə birlikdə müvafiq bələdiyyələrə təqdim etmək;

4.1.5. İnzibati nəzarət icraatı nəticəsində bələdiyyə aktının bu Əsasnamənin 3.1.2-ci yarımbəndində göstərilən normativ hüquqi aktlara zidd olması barədə kifayət qədər əsas olduqda aktın qanunvericiliklə müəyyən olunmuş müddətdə dəyişdirilməsi və ya ləğv edilməsi haqqında müvafiq bələdiyyəyə təklif vermək və qanunvericiliklə müəyyən olunmuş müddət ərzində həmin təklif bələdiyyə tərəfindən yerinə yetirilmədikdə məhkəməyə müraciət etmək;

4.1.6. hər hansı bələdiyyə aktı və ya bələdiyyənin fəaliyyəti dövlət mənafelərinə və ya ictimai mənafelərə ziyan vura bilərsə, dərhal həmin aktın ləğv edilməsi (dəyişdirilməsi) və ya həmin fəaliyyətə xitam verilməsi haqqında müvafiq bələdiyyəyə təklif vermək və təklif qanunvericiliklə müəyyən edilmiş müddətdə bələdiyyə tərəfindən yerinə yetirilmədikdə məhkəməyə müraciət etmək;

4.1.7. müvafiq qanunvericiliyin tələbləri pozulduqda yerli rəy sorğusunun təyin edilməsi haqqında qərardan məhkəməyə şikayət vermək;

4.1.8. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən araşdırmaların aparılmasına maneçilik törədilməsinə və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunmalı bələdiyyə aktlarının surətlərinin vaxtında həmin orqanın informasiya sistemində yerləşdirilməməsinə görə inzibati məsuliyyətə cəlb edilmə məsələsinin həlli üçün məhkəməyə müraciət etmək;

4.1.9. İnzibati nəzarət icraatı nəticəsində aşkar edilmiş qanunazidd fəaliyyətin dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması, dövlət qeydiyyatına alınmamış normativ xarakterli aktın tətbiqi halları aşkar olunduqda həmin aktın tətbiqinin dayandırılması və qeydiyyata alınması barədə bələdiyyələrə müraciət etmək;

Aşkar olunan dövlət qeydiyyatına alınmamış normativ xarakterli aktın tətbiqi halları ilə bağlı eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə” ilə nəzərdə tutulmuş tədbirlərin görülməsi üçün Nazirliyin Qanunvericilik baş idarəsinə məlumat vermək;

4.1.10. bələdiyyənin fəaliyyətində cinayət əlamətləri aşkar olunduqda müvafiq tədbir görülməsi üçün səlahiyyətli dövlət orqanlarına (qurumlarına) müraciət etmək;

4.1.11. bələdiyyələrə kömək məqsədilə bələdiyyə assosiasiyaları, dövlət və qeyri-dövlət təşkilatları ilə birgə layihələr hazırlamaq və həyata keçirmək;

4.1.12. yerli özünüidarəetmə fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsi təşkil etmək;

4.1.13. bələdiyyələrlə iş üzrə beynəlxalq əməkdaşlıq məsələlərinə dair təkliflər vermək;

4.1.14. bələdiyyələrin kadr potensialının təkmilləşdirilməsi işində iştirak etmək;

4.1.15. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.16. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 5. Baş idarənin fəaliyyətinin təşkili

5.1. Baş idarənin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

5.2. Baş idarənin strukturuna İnzibati nəzarət idarəsi və Analitik təhlil və metodoloji yardım şöbəsi daxildir.

5.3. Baş idarəyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan rəis rəhbərlik edir. Rəis Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş idarənin rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Baş idarənin rəis müavini ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Baş idarənin struktur qurumlarına Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəislər rəhbərlik edirlər.

5.6. Baş idarənin rəis müavini və işçiləri öz funksiyalarını vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

5.7. Baş idarə işini fəaliyyət istiqamətləri, habelə Nazirliyin iş planı əsasında həyata keçirir.

5.8. Baş idarədə işin təşkili və vəziyyəti, Nazirliyin iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar məsələlər mütəmadi olaraq Baş idarənin rəisinin yanında keçirilən iclaslarda müzakirə edilir.

**5.9. Baş idarənin rəisi:**

5.9.1. Baş idarənin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.9.2. Baş idarənin işçiləri arasında vəzifə və iş bölgüsü aparır;

5.9.3. Baş idarənin işçiləri tərəfindən vəzifələrinin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

5.9.4. Baş idarənin müvafiq hesabatlarını təsdiq edir;

5.9.5. Baş idarənin fəaliyyətini struktur qurumlarla əlaqələndirir;

5.9.6. qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsini təmin edir, inzibati nəzarət həyata keçirilərkən qanunvericiliyə əməl olunmasına nəzarət edir;

5.9.7. inzibati nəzarət icraatı nəticəsində aşkar edilmiş qanunazidd fəaliyyətin dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması, dövlət qeydiyyatına alınmamış normativ xarakterli aktın tətbiqi halları aşkar olunduqda həmin aktın tətbiqinin dayandırılması və qeydiyyata alınması barədə bələdiyyələrə müraciət edir;

5.9.8 bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən araşdırmaların aparılmasına maneçilik törədilməsinə və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunmalı bələdiyyə aktlarının surətlərinin vaxtında həmin orqanın informasiya sistemində yerləşdirilməməsinə görə inzibati məsuliyyətə cəlb edilmə ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsini təmin edir;

5.9.9. bələdiyyələrin bu Əsasnamənin 3.1.2-ci yarımbəndində göstərilən normativ hüquqi aktlara zidd aktlarının ləğv edilməsi və ya dəyişdirilməsi barədə qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsini təmin edir;

5.9.10. qanunvericiliklə nəzərdə tutulmuş qaydada və bu Əsasnamə ilə müəyyən edilmiş hallarda məhkəmələrə şikayət verir, müraciət edir və məhkəmələrdə iddia qaldırır;

5.9.11. inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar olunmuş qanun pozuntularının profilaktikası məqsədilə tədbirlər təşkil edir;

5.9.12. zərurət yarandıqda inzibati nəzarətin həyata keçirilməsi zamanı ekspertlərin və mütəxəssislərin cəlb edilməsini təşkil edir;

5.9.13. bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi üzrə regional ədliyyə idarələrinə metodiki rəhbərliyin və bu istiqamətdə işin aparılmasına nəzarətin həyata keçirilməsini təşkil edir;

5.9.14. bələdiyyələrə kömək məqsədi ilə bələdiyyə assosiasiyaları, dövlət və qeyri-dövlət təşkilatları ilə birgə layihələrin hazırlanmasını və həyata keçirilməsini təmin edir;

5.9.15. Baş idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

5.9.16. Nazirliyin iş planında və kollegiya qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.9.17. zəruri olan hallarda böyük həcmli tapşırıqların icrasını vaxtında təmin etmək üçün onların icrasını bir neçə işçiyə tapşırır və ya bir işçinin icraatından digər işçinin icraatına verir;

5.9.18. Baş idarəyə yeni qəbul edilmiş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarət edir;

5.9.19. Baş idarədə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.20. Baş idarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.21. vətəndaşları qəbul edir, Baş idarədə vətəndaşların qəbulunu və daxil olan müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.9.22. səlahiyyətləri daxilində Baş idarənin işçilərinə icrası məcburi olan sərəncam, habelə digər yazılı və şifahi göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.9.23. səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavininə tapşırır;

5.9.24. səlahiyyətləri daxilində digər məsələləri həll edir;

5.9.25. xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

**5.10. Baş idarənin rəis müavini:**

5.10.1. bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım göstərilməsi işinin aparılmasını təşkil edir;

5.10.2. yerli özünüidarəetmə ilə bağlı qanunvericilik aktları barədə bələdiyyələrin məlumatlandırılması işini təşkil edir;

5.10.3. bələdiyyə üzvləri və qulluqçuları arasında hüququn ayrı-ayrı sahələrinə dair hüquqi maarifləndirmə tədbirləri təşkil edir;

5.10.4. Baş idarədə kargüzarlıq və arxiv işini təşkil edir;

5.10.5. bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi üzrə regional ədliyyə idarələrinə metodiki rəhbərliyin və bu istiqamətdə işin aparılmasına nəzarətin həyata keçirilməsini təmin edir;

5.10.6. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə bələdiyyələrlə iş üzrə metodiki köməklik göstərilməsini təmin edir;

5.10.7. Baş idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üzrə Baş idarənin rəisinə təkliflər verir;

5.10.8. Baş idarənin fəaliyyətinin təkmilləşdirilməsi üzrə Baş idarənin rəisinə təkliflər verir;

5.10.9. Baş idarənin işçilərinin icraatında olan sənədlərin düzgün və vaxtında icra olunmasına nəzarət edir;

5.10.10. Baş idarənin işçilərini cəlb etməklə bələdiyyələrin fəaliyyətində qanunçuluq prinsipinə riayət olunmasının təmin edilməsi ilə bağlı təhlil və ümumiləşdirmələr aparır, statistik hesabatlar hazırlayır və Baş idarənin rəisinə təqdim edir;

5.10.11. İnzibati nəzarət icraatının həyata keçirilməsi zamanı zəruri sənədlərin və məlumatların təqdim edilməsi barədə bələdiyyələrə, dövlət orqanlarına (qurumlarına), habelə digər təşkilatlara müraciət edir;

5.10.12. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar edilmiş nöqsanlarla bağlı ümumiləşdirmələrin aparılmasını təmin edir;

5.10.13. yerli özünüidarəetmə fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsi təşkil edir;

5.10.14. Baş idarənin rəisi öz vəzifələrini icra edə bilmədikdə onun səlahiyyətlərini yerinə yetirir;

5.10.15. vətəndaşları qəbul edir;

5.10.16. ona tapşırılmış sahədə işin düzgün təşkil və icra olunmasını təmin edir;

5.10.17. peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.10.18. xidməti fəaliyyəti ilə bağlı Nazirliyin rəhbərliyinin və Baş idarənin rəisinin tapşırıqlarını yerinə yetirir.

## 6. Baş idarənin strukturuna daxil olan idarə və şöbənin vəzifələri

**6.1. İnzibati nəzarət idarəsinin vəzifələri aşağıdakılardır:**

6.1.1. bələdiyyələr tərəfindən bu Əsasnamənin 3.1.2-ci yarımbəndində göstərilən normativ hüquqi aktlara riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının, onları yaradan səbəb və şəraitin aradan qaldırılması məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək;

6.1.2. İnzibati nəzarət icraatının həyata keçirilməsi zamanı zəruri sənədlərin və məlumatların təqdim edilməsi barədə bələdiyyələrə, dövlət orqanlarına (qurumlarına), habelə digər təşkilatlara müraciət edilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.3. İnzibati nəzarət icraatı nəticəsində aşkar edilmiş qanunazidd fəaliyyətin dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması ilə bağlı bələdiyyələrə müraciət edilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.4. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirərkən bələdiyyələrin dövlət qeydiyyatına alınmamış normativ xarakterli aktının tətbiqi halları aşkar olunduqda həmin aktın tətbiqinin dayandırılması və qeydiyyata alınması üçün bələdiyyələrə müraciət edilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.5. bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən araşdırmaların aparılmasına maneçilik törədilməsinə və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunmalı bələdiyyə aktlarının surətlərinin vaxtında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirilməməsinə görə inzibati məsuliyyətə cəlb edilmə barədə Baş idarənin rəhbərliyinə təklif vermək;

6.1.6. bələdiyyələrin bu Əsasnamənin 3.1.2-ci yarımbəndində göstərilən normativ hüquqi aktlara zidd aktlarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.7. inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar olunmuş qanun pozuntularının profilaktikası məqsədilə tədbirlər keçirilməsi barədə təkliflər hazırlamaq;

6.1.8. inzibati nəzarətin həyata keçirilməsi zamanı zərurət yarandıqda ekspertlərin və mütəxəssislərin cəlb edilməsi haqqında Baş idarənin rəhbərliyinə təklif vermək;

6.1.9. idarənin fəaliyyətinin təkmilləşdirilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.10. fəaliyyət istiqamətləri üzrə məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması barədə Baş idarənin rəhbərliyinə təklif vermək, fəaliyyəti ilə bağlı aidiyyəti məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlamaq;

6.1.11. bələdiyyələrdə işin təşkilinə, inzibati nəzarət icraatının və qanunvericiliyin təkmilləşdirilməsinə dair Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.12. fəaliyyət istiqamətlərinə uyğun görülmüş işlər barədə hesabatlar hazırlamaq və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı hər ilin yekunu üzrə Baş idarənin fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzənin hazırlanmasında iştirak etmək;

6.1.13. fəaliyyət istiqamətləri üzrə bələdiyyə üzvlərinin və qulluqçularının sorğularına, vətəndaşların müraciətlərinə cavab hazırlamaq;

6.1.14. fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin və Baş idarə rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

**6.2. Analitik təhlil və metodoloji yardım şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.2.1. bələdiyyələrin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təşkil edilməsinə kömək etmək və onlara metodoloji yardım göstərmək;

6.2.2. bələdiyyələrin fəaliyyətində yol verilmiş qanun pozuntularının səbəb və şəraitinin öyrənilməsi və onların gələcəkdə qarşısının alınması məqsədi ilə müvafiq təhlil, statistik hesablamalar və ümumiləşdirmələr aparmaq;

6.2.3. bələdiyyələrin fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması, o cümlədən aktual məsələlər barədə qanunvericiliyin izahı məqsədi ilə tövsiyələr və metodik vəsaitlər hazırlanması ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək və hazırlanmasını təmin etmək;

6.2.4. bələdiyyə üzvləri və qulluqçuları arasında hüququn ayrı-ayrı sahələrinə dair hüquqi maarifləndirmə tədbirləri keçirməklə onların hüquqi biliklərinin artırılmasına kömək etmək;

6.2.5. yerli özünüidarəetmə ilə bağlı qanun layihələrinin hazırlanması, o cümlədən mövcud qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.6. yerli özünüidarəetmə ilə bağlı qanunvericilik aktları barədə bələdiyyələri məlumatlandırmaq;

6.2.7. inkişaf etmiş ölkələrin bələdiyyə fəaliyyətinə dair təcrübəsini öyrənmək, mütərəqqi təcrübəni tətbiq etmək məqsədi ilə qarşılıqlı əlaqələrin qurulmasında bələdiyyələrə kömək göstərilməsi istiqamətində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.8. bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım göstərilən zaman zərurət yarandıqda ekspertlərin və mütəxəssislərin cəlb edilməsi haqqında Baş idarənin rəhbərliyinə təklif vermək;

6.2.9. şöbənin fəaliyyətinin təkmilləşdirilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.10. fəaliyyət istiqamətləri üzrə məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması barədə Baş idarənin rəhbərliyinə təklif vermək, fəaliyyəti ilə bağlı aidiyyəti məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlamaq;

6.2.11. fəaliyyət istiqamətləri üzrə vəzifələrinin icrası ilə əlaqədar zəruri sənədlərin və məlumatların təqdim edilməsi barədə bələdiyyələrə, dövlət orqanlarına (qurumlarına), habelə digər təşkilatlara müraciət edilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun görülmüş işlər barədə hesabatları, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı hər ilin yekunu üzrə Baş idarənin fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan illik məruzəni hazırlamaq və bu məqsədilə mütəmadi ümumiləşdirmələrin aparılmasını, məlumat bazasının formalaşdırılmasını təmin etmək;

6.2.13. fəaliyyət istiqamətləri üzrə bələdiyyə üzvlərinin və qulluqçularının sorğularına, vətəndaşların müraciətlərinə cavab hazırlamaq;

6.2.14. bələdiyyələrlə iş sahəsində elektron informasiya sistemlərindən istifadəni təşkil etmək, bələdiyyələrin fəaliyyəti ilə bağlı hazırlanmış məlumatların "Bələdiyyələrlə iş" informasiya sistemi və media vasitəsilə yayımlanmasını təşkil etmək;

6.2.15. fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin və Baş idarə rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.